

# Saleh Qurbanov

## Gəldi

Bu yazın qış köynəyi
Yuxusuna dar gəldi.
Silkindi köynəyindən,
Tumurcuqda bar gəldi.

Bənövşə keçdi qışdan,
Gülür gözlərində dan.
Düşdü qız yuxusundan,
Düzlərə nübar gəldi.

Üfüqün qan üzü var,
Göyün yanan üzü var.
Yaxşı ki, dan üzü var,
Yaxşı ki, bahar gəldi.

## Göy üzü

Dərdim bir dərin sudu,
Daşıb ömrümü yudu.
Canda közərən odu,
Közü ağla, göy üzü.

Aşıb bərəni, bəndi,
Yoluma axşam endi.
Söz ki, fikrə kəfəndi,
Sözü ağla, göy üzü.

Yanan sübhün qanıdı,
Qəlbim onu tanıdı.
Yaz payızın donudu,
Yazı ağla, göy üzü.

Nə bu ahdan üzüldük,
Nə günahdan üzüldük.
Biz sabahdan üzüldük, -
Bizi ağla, göy üzü.

## «Gedək biz olmayan yerə»

*Ramiz Rövşəni oxuyarkən*

Dərd aparan yolumdayam,
Xəyalımla ölümdəyəm.
Mən payızın əlindəyəm,
Çəkir yaz olmayan yerə.

Ay canımın odu sular,
Heç dedinmi nədi sular?
İzimizi yudu sular,
Köçək iz olmayan yerə.

Apar bu yerdən yaşımı,
Agah et sirdən yaşımı.
Qurudar birdən yaşımı,
Gedək köz olmayan yerə.

Qalx ürəyin yuxusundan,
Dur ərköyün yuxusundan.
Keçək göyün yuxusundan,
Qəm yalqız olmayan yerə.

Ağladığın bəxti apar,
Tut əlindən, vaxtı apar.
Burda bizi unutdular,
«Gedək biz olmayan yerə»,
«Gedək biz olmayan yerə».

* * *

Yoxsa dağlar kiçilibdi?
Dumanına əli çatmır.
Bir üzünü gün qızardır,
Bir yanına əli çatmır.

Buludları göylər sıxır,
Sinəsində şimşək çaxır.
Dan üzünə nəğmə axır,
Axşamına əli çatmır.

Bir ağ günü seçib çəmən,
Ürəyinə köçüb çəmən.
Gecə süfrə açıb çəmən -
Ay camına əli çatmır.

* * *

*Allah, məni yarı öldür,*
*Yarı saxla ağlamağa.*
**V.Səmədoğlu**

Allah, məni öldürürsən,
Öldür, amma dərddə öldür.
Qəbrimi ver ahım boyda,
Qəlbimi heyrətdə öldür.

Sükutunu endir cana,
Vaxtımı külək aparsın.
Məndə saxla göz yaşını,
Yol ver ki, ürək aparsın.

Allah, məni öldürürsən,
Ağlamağa yarı saxla.
Hərdən gəlim yuxusuna,
Ayrılığı yarı saxla.

* * *

Baharda əriyir qışın həsrəti,
Qarışır bulağın buz yuxusuna.
Xınalı kəkliyin qandı ayağı,
Düşüb qayaların köz yuxusuna.

Dağların başında şimşək oynadı,
Yarıldı buludlar, susdu inadı.
Gəldi yuxusuna bir qızın adı,
Çiçəklər vuruldu öz yuxusuna.

Qönçə arzulardan gül ətri gəldi,
Şehli yanaqlardan xal ətri gəldi.
Dodaq şirinləşdi, bal ətri gəldi,
Arılar baş vurdu qız yuxusuna.

Ayları, illəri atdıq payıza,
Yollar xəzəlləndi, çatdıq payıza.
Gözləyə-gözləyə yetdik payıza.
Ay Saleh, aldandın söz yuxusuna.

* * *

Bu başdaşı - dar ağacı,
As daşından, as dünyanı.
Çarmıxından qaçıb iblis,
Dur, huşundan as dünyanı.

Çox sual var yaddaşında,
Neçə hal var yaddaşında.
Qara əl var yaddaşında,
Yaddaşından as dünyanı.

Yolunu fələk açmadı,
Dərdini külək açmadı.
Baharı çiçək açmadı,
Gəl, qışından as dünyanı.

Vaxt büründü yola, öldü,
Bəxti sola-sola öldü.
Beşiyində layla öldü,
Beşiyindən as dünyanı.

Göy üzünə qanını sər,
Şəhid yurda canını sər.
Ağla, qara gününü sər,
Göz yaşından as dünyanı.

## Qoymadın

Ahım qaldı ürəyimdə,
Bu yerə, göyə qoymadın,
Əllərimə qəm yüklədin,
Gözü silməyə qoymadın.

Gül üzündə ağladı şeh,
Oda düşdü qovsi-qüzeh.
Hörüklərdə dolaşdı meh,
Sirri bilməyə qoymadın.

Cana atdı közlərini,
Alışdırdı köz, dərimi.
Tüstü tutdu gözlərimi,
Səni görməyə qoymadın.

Yollarımı kəsdin niyə?
Baxıb-baxıb susdun niyə?
Dərdin məndə ölər deyə,
Məni ölməyə qoymadın.

* * *

Yuxum gecədən qaçıb,
Ondan başladım günü.
Vaxtımı bir-bir saydım,
Candan başladım günü.

Qəmin mən adda deyil,
Göz yaşın odda deyil.
Əvvəli yadda deyil,
Sondan başladım günü.

Önümdə bitdi «yox»lar,
Təki təklədi çoxlar.
Hələ sabaha çox var,
Andan başladım günü.

Dərdimi dərddən gətir,
Gözü heyrətdən gətir.
Məni həsrətdən gətir,
Səndən başladım günü.

* * *

Sözümdən sözün gəldi,
Od umdum, közün gəldi.
Gözümdə gözün gəldi.
Yaxında gördüm səni.

Bu güllər hardan gəlmiş?
Yoxsa bahardan gəlmiş?
Ay Allah, nə qədərmiş!
Çoxunda gördüm səni.

Aya baxma, sıxılar,
Bihuş olub yıxılar.
Nə şirinmiş yuxular,
Yuxumda gördüm səni.

* * *

İlim ol sən, günüm ol sən,
Ayrılığa qənim ol sən.
Ay qaranlıq, mənim ol sən,
O qəlbə gizlincə gedim.

O yoxuş qar, bu yoxuş qar,
Məndən keçən bir yoxuş var.
Əl eyləyir o yoxuşlar,
Dizim yorulunca gedim.

Canımı söküb apardı,
Dərdlərə büküb apardı.
Gülləri çəkib apardı,
Payızın dalınca gedim.

## Qədərmiş

Bu gün dünəndən ayrılıb,
Bəxti sabaha qədərmiş.
Şər əlindən üz tutanlar
Yerdən Allaha qədərmiş.

İtirmişəm sayı belə,
Günü belə, ayı belə.
Ayrılığın boyu elə,
Dilimdən aha qədərmiş.

Yığ gözünə sabahları,
Sər özünə sabahları.
Əməlinin savabları
Candan günaha qədərmiş.

Alnıma yazılan yolum,
Günahdan asılan yolum,
Cənnətdə kəsilən yolum
Məndən tamaha qədərmiş.

Ağrıdır, yaman ağrılar,
Sinəmdə yanan ağrılar,
Gözümdən daman ağrılar,
Sirdən cavaba qədərmiş.

## Mənim göz yaşlarım günahsız deyil

Yanağının günahları azdımı?
Üzüldü damlalar, üzündən getdi.
Vuruldu saçının dalğalarına,
Baxıb gözlərinə özündən getdi.
Mənim göz yaşlarım günahsız deyil.

Qoşulub getmişəm ayrılığına,
Məni uzaqlara atır xəyalın.
Qayıdır könlümə hıçqırıqların,
Hər gün göz yaşına batır xəyalın,
Mənim göz yaşlarım günahsız deyil.

İçməsə yolundan qaranlıqları,
Səni yad baxışlar görməzdi yəqin.
Süzülüb qəlbinə boş yer qoymasa,
Kimsə ürəyinə gəlməzdi yəqin.
Mənim göz yaşlarım günahsız deyil.

* * *

Haqq sözə çatmaz dünya,
Dərdinə yetməz dünya.
Günahı tutmaz dünya,
Günahdan keçilməsə.

Döz əzabın xeyrinə,
Gəl savabın xeyrinə.
Bu sabahın xeyri nə,
Qəmimlə içilməsə?

Bir az unut ahımı,
Canda uyut ahımı.
Qınağa tut ahımı,
Göy üzü açılmasa.

## Yuxulu güllərin

Oyanmayıb əllərində
Hələ yuxulu güllərin.
Bir ayıla, yuxusuna
Gülə yuxulu güllərin.

Ətirlənə əl güllərlə,
Yanağını sil, güllərlə.
Qoşa yatsın gül güllərlə
Belə yuxulu güllərin.

Çiçək hanı? Seç barını,
Bir iyləyib iç barını.
Mürgüləyən saçlarını
Hörə yuxulu güllərin.

Bəxtini yaz yuxusunda,
Yatım bir az yuxusunda.
Qəbrimi qaz yuxusunda,
Ölüm yuxulu güllərin.

*Daşkəsən*